

# Qarabağın bərpası tarixi qələbəmizin davamıdır

***Son 18 ildə həyata keçirilən daxili və xarici siyasətin uğurları Azərbaycanın adını dünyanın inkişaf etmiş dövlətləri sırasına yazıb. Xalqın dövlət başçısına inam və etimadı ölkəni yeni uğurlara, beynəlxalq ictimaiyyəti heyrətləndirən nailiyyətlərə və tarixi Qələbəyə gətirib çıxartdı. Təbii ki, bu uğurlar heç də asanlıqla əldə olunmayıb. Dövlətimizin başçısı xalqımızın ciddi narahatlığına səbəb olan Ermənistan – Azərbaycan münaqişəsinin dinc yollarla həlli üçün bütün vasitələrdən istifadə etdi. Lakin hər dəfə işğalçı Ermənistanın qeyri-konstruktivliyi, “böyük Ermənistan” iddiaları danışıqlar prosesinə problem yaratdı.***

Problemin aradan qaldırılması üçün dövlət başçımızın hüquqi zəmin hazırlayan beynəlxalq fəaliyyəti də xüsusi qeyd olunmalıdır. Azərbaycan münaqişə boyunca bütün aparıcı beynəlxalq təşkilatlarla əməkdaşlıq etdi və uzun illər davam edən münaqişənin həlli üçün hüquqi baza hazırladı. BMT Baş Assambleyası, Qoşulmama Hərəkatı, Avropa Şurası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu təşkilatlar Ermənistan ordusunun işğal etdiyi Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılması üçün qətnamələr qəbul etdilər. Bu strategiyanın nəticəsi olaraq Avropa İttifaqı ilə paraflanmış sənəddə sərhədlərimizin toxunulmazlığına, suverenliyimizə və ölkəmizin ərazi bütövlüyünə dəstək yer aldı. Bütün bunlar münaqişənin həlli üçün yaradılan hüquqi əsaslar idi. Dövlət başçımızın uğurlu fəaliyyəti dünyaya sübut etdi ki, Qarabağ əzəli Azərbaycan torpağıdır.

## İşğal əbədi ola bilməzdi

Bu müddət ərzində Azərbaycanın artan iqtisadi qüdrəti və siyasi nüfuzu sayəsində Ermənistan beynəlxalq layihələrin autsayderinə çevrildi. Bütün regional layihələrdən təcrid olunmuş Ermənistandan fərqli olaraq Azərbaycan transmilli layihələrlə regionda tamamilə yeni mənzərə yaratdı və bölgənin enerji və nəqliyyat xəritəsini yenidən tərtib etdi. Ölkəmizin təşəbbüsləri təkcə xalqımızın deyil, bir çox ölkələrin, o cümlədən regionun da maraqlarını təmin edirdi. Bunlar isə Azərbaycanın beynəlxalq nüfuzunu daha da gücləndirirdi. Lakin dünyada baş alıb gedən ikili standartlar, islamofobiya və ölkəmizin uğurlarını qəbul edə bilməyən bəzi beynəlxalq təşkilatların, Qərbin və Avropanın ermənipərəst qüvvələri Ermənistanın işğalçılıq siyasətini davam etdirməsinə, sanki, rəvac verirdilər.

Prezident İlham Əliyev dəfələrlə bəyan etmişdi ki, bu işğal əbədi ola bilməz. Azərbaycan öz ərazisnin işğal altında qalması ilə razılaşa bilməz. Dövlət başçımız 2003-cü ildə – ilk dəfə Prezident seçiləndən sonra andiçmə mərasimindəki çıxışında da bu məsələni xüsusi diqqətə çatdırmışdı: “Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir”.

Dövlətimizin başçısı torpaqlarımızın düşməndən azad ediləcəyi barədə 17 il əvvəl andiçmə zamanı verdiyi vədə sadiqliyini nümayiş etdirdi. Ötən il sentyabrın 27-də Ermənistanı Azərbaycana qarşı başladığı genişmiqyaslı hücumlarına görə peşman etdi. 44 gün davam edən müharibədə işğalçı ölkənin ordusu darmadağın edildi. 30 il xarici havadarlarının və bəzi qərəzli beynəxalq təşkilatların sayəsində hegemonluq edən Ermənistan ordumuz qarşısında heç 44 gün tab gətirə bilmədi. 2020-ci il noyabrın 10-da prezidentlər İlham Əliyev, Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyanın imzaladıqları üçtərəfli bəyanat bu işğala son qoyulduğunu rəsmən təsdiqlədi. Yeni dövlət başçımız 2003-cü ildə xalqa verdiyi vədə sadiqliyini nümayiş etdirdi. Möhtərəm Prezidentimiz xalqa müraciətində bu məqamı bir daha xatırlatdı: “Bunu hamı bilsin – düşmən, onun havadarları və bu məsələ ilə məşğul olan vasitəçilər. Həmişə sözümün üstündə durmuşam. Azərbaycan xalqına nə demişəmsə, onu da etmişəm. Bu məsələdə də sözümün üstündə durdum və artıq biz Qələbəni qeyd edirik”.

Xatırladım ki, Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edilib. Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Sükürataz yüksəkləri və daha 5 adsız yüksəklik azad olunub.

Üçtərəfli bəyanatın 6-cı bəndində qeyd edilirdi: “Ermənistan Respublikası 15 noyabr 2020-ci il tarixinədək Azərbaycan Respublikasına Kəlbəcər rayonunu, 1 dekabr 2020-ci il tarixinədək isə Laçın rayonunu qaytarır”. Artıq həmin ərazilər də düşməndən azad edilmişdi. Özü də qan tökülmədən, bir şəhid vermədən. Təbii ki, bütün bunlar Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasi kursun məntiqi nəticəsidir. Bütün bunlar xalqın dövlət başçısına olan inamını daha da möhkəmləndirib. Artıq ölkəmizdə iqtidar-müxalifət birliyi də sıx tellərlə bağlanıb. Hətta, ən radikal müxalifət nümayəndələri də qazanılan Qələbədən, 30 ilə yaxın işğal altında qalan torpaqlarda Azərbaycan bayrağının dalğalanmasından sevincini gizlədə bilmir və dövlətimizin başçısına səmimi təbriklər ünvanlayır, onun ətrafında sıx birləşdiklərini bəyan edirlər. Ölkəmizdə fəaliyyət göstərən siyasi partiyalardan 50-nin rəhbərinin bu barədə birgə bəyanat qəbul etməsi də bu həmrəylikdən, dövlət başçısına olan inam və etimaddan xəbər verir.

## Qarabağ yenidən qurulur

2020-ci il noyabrın 16-da Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarına ilk səfərləri Azərbaycanın tarixi Qələbəsinin rəsmiləşdirilməsini əks etdirən tarixi hadisə idi. Dünya birliyinin də eşidə biləcəyi tərzdə deyilən “Qarabağ Azərbaycandır və nida işarəsi” qətiyyətindən sonra Prezident İlham Əliyev Füzuli və Cəbrayıl rayonlarına səfəri ilə həmin nidanı qoymuş oldu. Siyasətdə və cəbhədə, diplomatiyada və hərbi strategiyada üstünlük qazanmış xilaskar Prezidentin, müzəffər Ali Baş Komandanın işğaldan azad olunmuş torpaqlarımıza ilk səfəri qalib xalqın səfərdə idi. Bu, tarixi bir səfər idi. Qazilərlə görüşdə “Mən hər zaman Sizin yanınızda olacağam”, xalqa müraciətində “Mən hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm” – deyən dövlət başçısı İlham Əliyev, Füzuli və Cəbrayıl rayonlarına səfəri ilə, eyni zamanda, “Hər bir hərbçinin Ali Baş Komandanı” olduğunu aşkar şəkildə nümayiş etdirmiş oldu.

Prezident İlham Əliyevin ölkənin birinci xanımı ilə birgə işğaldan azad olunmuş ərazilərə hər səfərində Qarabağda genişmiqyaslı yenidənqurma, abadlıq və tikinti işlərinin təməli qoyuldu. Bu proses artıq dünyada əks-səda yaradıb. Cəmi 8 ay ərzində Füzuli Beynəlxalq Hava Limanının tikilib istifadəyə verilməsi və artıq ilk rəsmi sərnişinini–qardaş Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı qəbul etməsi “Qarabağ Azərbaycandır və nida!” kəlamının bariz nümunəsidir. Ötən il noyabrın 16 -da başlanan təməlqoymalar elektrik enerjisi, avtomobil və dəmir yolları infrastukturlarında, hava limanlarında genişmiqyaslı tikinti işlərinə rəvac verib.

Qarabağda quruculuq işlərinin aparılması üçün 2021-ci ilin dövlət büdcəsindən 2,2 milyard manat vəsait ayrılıb. Bununla yanaşı, möhtərəm Prezidentimizin 4 yanvar 2021-ci il tarixli fərmanı ilə işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə, təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə “Qarabağ Dirçəliş Fondu” yaradılıb. Bu fond Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və yenidən qurulması, eləcə də, dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyi göstərilməsini və sərmayələrin cəlb edilməsini, bu sahədə dövlət-sahibkar tərəfdaşlığının inkişafını təmin edən, o cümlədən, ölkə daxilində və xaricində zəruri təşviqat işlərini həyata keçirən publik hüquqi şəxsdir.

Şuşa, Ağdam, Füzuli və Cəbrayıl şəhər və rayonlarının baş planları hazırlanmış, müvafiq inşaat işlərinə start verilmişdir. Qubadlı və Zəngilan rayonlarının da baş planları hazırlanmaq üzrədir. Dövlət başçımızın təşəbbüsü ilə işğaldan azad olunmuş ərazilərdə Azərbaycanda ilk dəfə olaraq, “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyası tətbiq olunur. “Ağıllı kənd” layihəsi ilkin olaraq, Zəngilan rayonunun Üçüncü Ağalı kəndində artıq uğurla icra olunur. Bu layihələr özündə Azərbaycan Respublikasının şəhər və kəndlərində göstərilən xidmətlərin keyfiyyətinin, təhlükəsizliyinin, səmərəliliyinin artırılmasını, informasiya texnologiyalarının tətbiqini, habelə, mövcud resursların effektiv istifadəsi və idarə olunmasının təmin edilməsi, nəticədə şəhər və kənd yerlərində dayanıqlı inkişafını ehtiva edir.

Qarabağda yenidənqurma və bərpa işləri sırasında ən mühüm yeri ərazilərin elektrik enerjisi ilə təmin edilməsi, bərpa olunan və yeni enerji mənbələrinin yaradılması tutur. Bütövlükdə, Qarabağ “Yaşıl enerji” zonası kimi elan edilmişdir. 2021-ci il mayın 3-də Prezident İlham Əliyev “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində “yaşıl enerji” zonasının yaradılması ilə bağlı tədbirlər haqqında” Sərəncam imzalamışdır. Bu ərazilərdə “yaşıl enerji” zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyanın və baş planın hazırlanması üçün ixtisaslaşmış beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi məqsədilə 2021-ci ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Energetika Nazirliyinə 1 milyon 391min ABŞ dollarının manat ekvivalenti məbləğində vəsait ayrılmışdır.

Yeni nəqliyyat-kommunikasiya xətlərinin inşası və tarixən mövcud olmuş yolların bərpası da yenidənqurma işlərinin prioritetini təşkil edir. Regionda avtomobil yollarının çəkilməsi layihəsi 10 əsas avtomobil yolunu əhatə edir ki, bunun da ümumilikdə uzunluğu 665,4 kilometrdir. Layihədə diqqət çəkən əsas məqamlardan biri uzunluğu 101 kilometr olan Zəfər yoludur. Bu yol hər birimizi “Qarabağın tacı”na – Şuşaya aparır və artıq həmin yol istifadəyə verilib. Avtomobil yolları ilə yanaşı, yeni dəmir yollarının çəkilməsi və bir zamanlar mövcud olmuş dəmir yollarının bərpası istiqamətində də bir sıra layihələr icra olunmaqdadır. Belə ki, Horadiz–Ağbənd və Bərdə–Ağdam dəmir yollarının yenidən qurulması istiqamətində işlər aparılır. Bu istiqamətdə dəmir və avtomobil yolları vasitəsilə Naxçıvanla Azərbaycanın qərb rayonlarının birləşdirilməsi və Zəngəzur dəhlizinin işə düşməsi zəruri məsələlərdən biridir.

Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsi, Laçın və Zəngilan rayonlarında növbəti hava limanlarının təməlinin qoyulması Qarabağda yenidənqurma , abadlıq və tikinti işlərinin vacib sahələrindəndir. Mürəkkəb dağlıq relyefə malik olan Laçın rayonunda belə bir strateji nəqliyyat infrastrukturunun yaradılması gələcəkdə bu istiqamətdə daşımaların daha effektiv olmasına xidmət edəcəkdir. Zəngilanda isə hava limanının tikintisi nəqliyyat qovşağı baxımından olduqca vacibdir. Çünki Zəngilan Azərbaycan Ermənistan, İran və Naxçıvanla sərhəddə yerləşir.

Ümumilikdə, Qarabağın yenidən qurulması və bərpasında iqtisadi əsaslar da mühüm rol oynayır. Prezident İlham Əliyevin 2021-ci il 7 iyul tarixli fərmanı ilə Azərbaycanda iqtisadi rayonların yeni bölgüsü təsdiqlənib. Azərbaycanın ərazilərinin işğaldan azad edilməsi iqtisadi rayonlar üzrə bölgüyə yenidən baxılması şərtləndirir. Artıq Qarabağda aparılan yenidənqurma işləri çərçivəsində Şərqi Zəngəzur iqtisadi rayonunda sənaye və iqtisadi cəhətdən yeni layihənin icrasına başlanılıb. Belə ki, cari il oktyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılacaq “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının təməlini qoyub.

## Ali ordenin layiqli sahibi

Göründüyü kimi, qısa müddət ərzində Qarabağda aparılan yenidənqurma, abadlıq və bərpa işləri geniş vüsət alıb. Bütün bunlar, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dediyi kimi, hər igidin işi deyil. Bunları yalnız İlham Əliyev kimi lider həyata keçirə bilər. Elə buna görə də, yaxın vaxtlarda Türkdilli Ölkələrin Dövlət Başçıları Şurasının qəbul etdiyi qərar alqışa layiqdir. Qərarda deyilir: “Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan, Zati-aliləri İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının ərazilərinin işğaldan azad edilməsini və ərazi bütövlüyünün bərpasını təmin edərək türk birliyinə mühüm töhfə verən və bölgədə davamlı sülh və sabitliyin əldə olunmasına yol açan tarixi Qələbəyə görə Dövlət Başçıları Şurası Türkiyə Respublikasının Prezidenti Zati-aliləri Rəcəb Tayyib Ərdoğanın təklifi ilə Zati-aliləri İlham Əliyevin böyük şərəflə “Türk Dünyasının Ali Ordeni” ilə təltif edilməsi haqqında qərar qəbul etmişdir”.

2020-ci ilin 8 noyabrı Azərbaycan tarixinə əbədi həkk olunub. Həmin gün bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür. Həm də dövlət başçımızın verdiyi vədlərə sadiqliyini təsdiqləyən gündür. Bu günü öz xalqına bəxş etmək hər rəhbərin, hər siyasətçinin hünəri deyil.

*Əliqismət BƏDƏLOV,*
*“Xalq qəzeti”*